

VAQİF YUSİFLİ

# NİZAMİ CƏFƏROV – 60

(əvvəli ötən şənbə sayımızda)

**O, mənsub olduğu türk millətinə-ümumən türklərə, o cümlədən də Azərbayjan türklərinə elə bir tərəqqi-təkamül formulu vermişdi ki, heç bir taktiki mücadilə bu səviyyəyə qalxa bilməzdi”.**

Nizami Cəfərov tənqidçidir. Bizdə ”dilçi-tənqidçi” deyə mənim sevimli müəllimimi olmuş Tofiq Hajıyevi, Kamil Vəliyevi, Kamal Abdullanı və Nizami Cəfərovu xüsusi fərqləndirirlər və həm də bu ”fərqləndirmədə” bir qısqancıq da hiss olunur.

Təbii ki, tənqidçilik xüsusi bir istedad tələb edir və bu istedad Nizami Cəfərovun bu çağcan qələmə aldığı məqalə və resenziyalarında da diqqəti cəlb edir. Özü də Cəfərovun mətbuata, ədəbi dərgilərə yol açması da tənqidçiliyindən başlayıb. Bir yazımda qeyd etmişdim ki; ”Nizami Cəfərovun ədəbi tənqidə gəlişini yaxşı xatırlayıram. O da əksər həmkarları kimi tənqidçiliyə resenziyadan başladı, əsərlərini sevə-sevə oxuduğu müasir şairlərin şeir kitablarını tədqiq hədəfinə çevirdi.

Bir az tanınandan sonra ”Ədəbiyyat və incəsənət” qəzetində işə girdi: tənqid və ədəbiyyatşünaslıq şöbəsinin müdiri kimi fəaliyyətə başladı, ”ən qaynar nöqtələrin” birində göründü. Getdikcə onun tənqidçi istedadının çalarları üzə çıxdı.

Müasir və klassik ədəbiyyatın, ədəbi dilin bir çox problemləri, ədəbi şəxsiyyətlər və onların yaradıcılığı Nizami Cəfərov təfsirində yeni məna kəsb etdi”.O yazıda həm də qeyd etmişdim ki, Nizami Cəfərov məktəb keçmiş tənqidçi-ədəbiyyatşünasdır. Bu məktəbdə əsas fənn Azərbaycan ədəbiyyatı tarixi, Azərbaycan tənqidi və əlbəttə, ədəbiyyatın elmi-nəzəri proqramıdır. Onun yetişib formalaşmasında konkret olaraq hansı bir ustad tçnqidçinin ya dilçi aliminsə adını çəkmək qeyri-mümkündür. O, Azərbaycan ədəbiyyatının bütün böyük sənətearlarından dərs almışdır, Azərbaycan filoloji fikrinin bütün böyük ustadları onun müəllimi olmuşlar. M.Arif tənqidindəki obyektivlik və ədəbi vicdan meyarı, M.C əfər tənqidindəki araşdırma siqləti, M.Hüseyn tənqidinə xas cəsarət hissi, Yaşar Qarayevə məxsus fəlsəfi-estetik düşüncə tərzi bütün bunlar Cəfərovun yazılarında da ədəbi tənqid ənənəsinin yaşarı xüsusiyyətləri kimi diqqəti cəlb edir. Amma ənənədən faydalanmaq öz yerində, Cəfərov özünəməxsus tənqidçidir orijinal fikir və mülahizələriylə..üslubuyla.

Xatırlayıram Cəfərovun Azərbayjan yazıçılarının X qurultayında müasir poeziyamız haqqında məruzəsini. Bu tipli məruzələrdə əvvəlki qurultaylardan miras qalmış ənənəvi sadalama üsulundan Cəfərov da yaxasını qurtara bilməmişdi. Amma bununla bərabər, həmin məruzədə müasir poeziyamızın üslub rəngarəngliyi, polifonik mənzərəsi, sənətkarlıq axtarışları öz əksini tapmışdı. Ümumiyyətlə, Cəfərov müasir ədəbiyyatın içindədir və içində olduğu ədəbiyyatın ən uğurlu nümunələrinə qətiyyən biganə deyil. Mən son illərdə onun qələmindən çıxan bir çox yazıları- ”Nəriman Həsənzadə: tariximizin taleyi, taleyimizin tarixi”, ”Müasir ədəbi proses, yaxud ”fövqəladə vəziyyət”də düşüncələr”, ”Anar”, ”Çingiz Əlioğlu: Çərçivənin çərçivəsizliyi, yaxud çərçivəsizliyin çərçivəsi”, ”Dolu ədəbiyyatın ”Qarabağnamə”sidir, ”Əmir Teymurun tarixiliyi və müasirliyi”, ”Fərdi hisslər..və sosial xarakterlər”, ”Şair Barat Vüsala açıq məktub” - oxumuşam. Bu yazılar oxuduğu əsərlərə ən obyektiv, eyni zamanda, ən subyektiv münasibətin ifadisidir. Ona görə ”subyektiv” deyirəm ki, Cəfərovun öz tənqidçi obrazı da bu yazılarda aşkar nəzərə çarpır. Vaxtilə ”mükəmməl tənqidçi obrazı” axtarışına çıxan Cəfərovun özü mükəmməl bir tənqidçidir (bu xüsusda bir balaca mübahisəmiz də olub). Və mən bu mükəmməl tənqidçi obrazını Nizami Cəfərovun polemik yaxud kəskin tənqidi ruhda yazdığı bir sıra məqalələrində də hiss etmişəm.

Nizami Cəfərovun tənqidində ən sevimli forma - ədəbi portretdir.

O, deyərdim ki, bu formanın son illərdə ən maraqlı nümunələrini yaradıb. İsmayıl Şıxlı, Hüseyn Arif, Həmid Araslı, Muxtar Hüseynzadə Cfərovun ən sevimli portret-obrazlarıdır. Cəfərov, haqqında dəfələrlə söz açılan İsmayıl Şıxlını və Hüseyn Arifi bir daha kəşf edir.

İsmayıl Şıxlının sərt, ciddi KİŞİ obrazı ilə yaradıcılığındakı KİŞİ obrazları qoşalaşır, vəhdət yaranır. Hüseyn Arifin baməzə obrazı ilə onun son dərəjə zərif, təbii Şair obrazı arasında isə əslində, mükəmməl bir İnsan obrazı durur. Hətta mən bu iki şəxsiyyətlə Cəfərov arasında bir oxşarlıq da görürəm. Cəfərov Milli Mclisdə də, Atatürk Mərkəzində də, digər rəsmi təşkilatlarda da hardasa İsmayıl Şıxlını xatırladır..çox ciddi pozası ilə..Amma tutaq ki, Nəriman Həsənzadənin 80 illik yubiley gejəsində (və başqa bu kimi tədbirlərdə) ciddi Nizami Cəfərov tamam dəyişmişdi. Öz sağlam, heç kimin qəlbinə toxunmayan yumoru ilə

Son iyirmi ildə ”bizdə tənqid yoxdur” iddiası ilə çox rastlaşmışıq. Amma bütün bu iddiaların əksinə olaraq ədəbi tənqid öz missiyasını davam etdirir və məsələnin ən önəmli cəhəti budur ki, tənqidin aparıcı nümayəndələri, onun xarakterini, nə etməli olduğunu düzgün müəyyənləşdirən simaları var- onların sırasında Nizami Cəfərov birincilərdəndir. Nümunə üçün mən onun ”Ədəbiyyat söhbətləri” kitabını misal gətirə bilərəm.



”Ədəbiyyat söhbətləri” Nizami Cəfərovun müasir ədəbiyyatımız haqqında düşüncələrini əks etdirir və özü də çox maraqlıdır ki, Nizaminin ədəbiyyata baxış bucağı çoxcəhətlidir,: fikirləşirsən ki, çağdaş ədəbi prosesdə elə bir problem, elə bir istiqamət, elə bir yaradıcılıq yönü yoxdu ki, Nizami Cəfərovun yazılarında əks olunmasın. ”Bizdə ədəbiyyat vardırmı?”-vaxtilə, XIX əsrdə V.Q.Belinski çox ciddi şəkildə bu sualı səsləndirirdi və belə qərara gəlirdi ki: ”Məşhur və hətta əhəmiyyətli əsərlərin çox olması hələ ədəbiyyat yarada bilməz: ədəbiyyat bir növ tam və fərdi varlıqdır, onun bütün hissələri öz aralarında üzvi surətdə bölünmüşdür, ədəbiyyatın ən rəngarəng hadisələri bir-biri ilə qarşılıqlı surətdə əlaqədardır”. Nizaminin bir tənqidçi kimi üstünlüyü də ədəbiyyatı ”bütün hissələri və rəngarəng hadisələri ilə” əks etdirmək, ”tənqid var” həqiqətini ortaya qoymaqdır. Əlbəttə, Tənqid var və Nizaminin ”Ədəbiyyat söhbətləri”ndə təkcə tənqidin deyil, ədəbi prosesin nəzarətçisi rolunu öhdəsinə götürən bir tənqidçinin yorulmaz fəaliyyəti ilə rastlaşırıq.

Nizami Cəfərov ”Ədəbiyyat söhbətləri”ndə çox məsələlərdən söz açır - Azərbaycan poeziyasının və Azərbaycan nəsrinin bir əsrlik tarixindən və qətiyyən hesabat xarakterli icmalçılığa uymayıb poeziyanın və nəsrin dövrləşdirmə kriteriyalarını müəyyənləşdirir, bir neçə məqaləsini isə qədim türk ədəbiyyatının problemlərinə həsr edir, bu mövzuda indiyə kimi lazımınca izah olunmamış məsələlərə toxunur. Azərbaycan mühacirət ədəbiyyatına həsr olunmuş elmi simpozimdan söz açır və bu sahədə görülə biləcək işlərin vacibliyini ortaya qoyur. ”Azərbaycan muğamının qəzəlləri”ndə bu mövzuya kifayət qədər bələd olduğunu nümayiş etdirir. ”O dövrün ”Fyuzatı”ndan bu dövrün ”Fyuzatı”na körpü salır. Bu gün üçün bəlkə də çoxlarına yenilik kimi səslənməyən Mehdi Hüseynin tənqidçi üslubunda tənqidin tənqidini araşdırır, Almaz İldırımın ölməz ideallarından söz açır, yaradıcılığı nadir hallarda araşdırılan Hacı Kərim Sanılının ”Məclisi-Məbusan deyişmələrinini nəzərə çarpdırır, böyük məhəbbətlə Məsud Əlioğlunun mütəfəkkir ədəbiyyatşünas portretini canlandırır. Amma bu ”Ədəbiyyat söhbətləri”ndə biz Nizami Cəfərovu ədəbiyyatın ümumi məsələlərindən və keçilmiş ədəbiyyat tarixindən, ədəbi şəxsiyyətlərdən daha çox təzə nəfəs, təzə söz axtarışında izləyirik.. Deməli, ədəbiyyat ”bütün hissələri və rəngarəng hadisələri ilə” bizə təqdim olunur.

Nizami Cəfərov ədəbi prosesi çox diqqətlə izləyir və təktük tənqidçilərdəndir ki, onun üçün ”hər şeyin təzəsi” prinsipi əsasdır.Elə mövzular var ki, onlara dəfələrlə müraciət olunub, Nizami də o mövzuya baş vurur və təzə söz deyə bilir. Məsələ burasındadır ki, o təzə söz deyilməyən sözdür. Musa Yaqub poeziyası ”Təbiət qədər təbii”dir, bunu hamı etiraf edir, amma Nizami bu təbiiliyin ”mexanizmini” açır, Deyir ki:

”Mən ikinci bir şair tanımıram ki, ”torpaq” sözünü bu qədər işlətsin və həmin sözə bu qədər estetik, metaforik mənalar qazandırmış olsun”. Deyir ki: ”Siz Allah, gözətçi götürün məni, Olum bu güllərin bağbanı, dağlar. Və bu dağlar nə Aşıq Ələsgərin, nə də Səməd Vurğunun dağlarıdır. Həm poetik leksikonu, həm bədii intonasiyası, həm də ümumi ruhu, ovqatı ilə”.Şairlərin poetik təfəkkür və hətta dil-üslub qohumluğu etibarilə bir-birinə oxşarlığı barədə az yazmayıblar.

N.Cəfərovun Məmməd Arazla Musa Yaqub arasında müəyyən oxşarlığı (hər ikisinin təbiətə vurğunluğu) nəzərə çarpdırmağı məlum, amma Məmməd Arazla Musa Yaqubun ideya-estetik təfəkküründə ciddi bir fərqin olduğuna da işarə edir: ”Məmməd Araz təbiətdən nə qədər çox yazsa da, prinsip etibarilə, təbiət şairi deyil. Hər şeydən əvvəl ona görə ki, Məmməd Arazın bədii interpretasiyasında təbiət, əslində, cəmiyyəti, ictimai münasibətləri dərk etmək üçün vasitədir Musa Yaqub isə cəmiyyətdən yazanda da ictimai münasibətlərin təbiətinə varır”.

Nizami Cəfərov araşdırıcı tənqidçidir. O, hansı şairdən ya nasirdən yazırsa, onun yaradıcılığında mütləq nöqsan, qüsur, texniki səhv axtarmır (tənqid edəndə isə daha köklü məsələlərə toxunur), təhlil etdiyi əsərin ya əsərlərin timsalında onun müəllifinin ədəbi simasını müəyyənləşdirir, çağdaş ədəbiyyatda hansı bədii-estetik potensiala malik olduğunu nəzərə çarpdırır. ”Köhnə” sözün yeni ustası” kim ola bilər? Mənim fikrimcə, XX -XXI əsrlərdə Dədə Şəmşir,Hüseyn Arif,Hüseyn Kürdoğlu, Məstan Günər, Zirəddin Qafarlı, Məmməd İlqar, Məmməd Dəmirçioğlu, Rəfail İnceyurd, İslam Sadıq. O, sonuncudan söz açır- ”köhnə havalarda təzə notlar səsləndirməyi bacaran” İslam Sadıqdan. ”Köhnə” sözün yeni ustası olmaq, hər şeydən əvvəl, xalq təfəkkürü, onun stabilləşmiş, etnik-mədəni vərdişlər sisteminə çevrilmiş texnologiyaları ilə yazmaqdır. Bu, o zaman həqiqi ustalıqdır ki, birincisi, təbii olsun, inersiya ilə gəlsin, ikincisi isə, folklor hərfi-hərfinə köçürülməyib zamanla şərtlənən (və səsləşən) orijinallığında təzahür eləsin”- elə bilirəm bu fikri ”köhnə” sözün (qoşmanın, gəraylının, təcnisin, bayatının) yeni ustalarının hamısı haqqında söyləmək olar.

**Mən bir həmkarım kimi Nizami Cəfərovu 60 yaşı münasibətilə ürəkdən təbrik edirəm və yeganə arzum budur ki, həmişə onun səsini, sözünü eşimdək. Çünki Nizami Cəfərovun yazacağı, qələmə alacağı mətləblər hələ çoxdu.**